AMEA
İQTİSADİYYAT İNSTİTUTU

# AMEA İqtisadiyyat İnstitutunun 60 illik Yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda

## BEYNƏLXALQ ELMİ KONFRANS

## 18 oktyabr 2018

"**İqtisadi artım və ictimai rifah**" mövzusunda Beynəlxalq Elmi Konfransın keçirilməsinin əsas məqsədi alimlərin ideyalarının, elmi nəticələrinin paylaşılması və müzakirə edilməsi üçün uyğun platforma təqdim etməkdir.

Məqalələrin göndərilməsi üçün son tarix – **20 sentyabr 2018-ci il**

***Konfransın işçi dilləri*** – azərbaycan, rus, ingilis

***Məqalələrin tərtibatına tələblər:***

- Təqdim olunan məqalə Microsoft Word proqramında yazılmalıdır. Həcm 5 səhifədən az olmamalı, format A4, şrift Times New Roman, ölçü 12, hər tərəfdən 2,0 sm, 1,15 interval, abzas 1,0 olmalıdır.
- Məqalənin əvvəlində yazıldığı dildə xülasə və açar sözlər, məqalənin sonunda isə ədəbiyyat siyahısından əvvəl ingilis dilində xülasə və açar sözlər göstərilməlidir. Əgər məqalə ingilis dilində olarsa o halda, məqalənin sonunda ədəbiyyat siyahısından əvvəl azərbaycan dilində xülasə və açar sözlər yazılmalıdır.
- Məqalənin adı böyük hərflərlə, qalın şriftlə (ölçü 12) yazılmalıdır.
- Müəllifin soyadı, adı, atasının adı qalın şriftlə (ölçü 12) yazılmalıdır.
- Təşkilat, vəzifə, E-mail ünvanı və şəhərin adı adi şriftlə (ölçü 12) yazılmalıdır.
- Məqalənin mətnində qaynaqlara istinad, mötərizədə müəllifin (müəlliflərin) soyadı, çap ili qeyd olunmaqla verilir (məs.: *(Məmmədov, 2009), (İmanov və Həsənli, 2001), (Dünya Bankı, 1999)*). İstifadə olunan ədəbiyyatın siyahısı məqalənin sonunda, əlifba sırası ilə və nömrələnməklə verilməlidir (ölçü 12).
- Konfransda iştirak etmək istəyənlər məqalələrini economicsaz60@gmail.com ünvanına göndərə bilərlər.

Təşkilat Komitəsi təqdim edilən məqalələri konfransın istiqamətlərinə uyğun seçim etmə hüququna malikdir. Digər nəşrlərdə çap edilən və qoyulan tələblərə cavab verməyən materiallar qəbul edilməyəcək.

**Konfransın keçirilmə yeri:** Bakı H.Cavid prospekti 115, AMEA-nın əsas binası
Suallarınızla bağlı bu ünvana müraciət edə bilərsiniz:

**Ünvan:** AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, İqtisadiyyat İnstitutu

**Əlaqə telefonu:** (+99412) 510 37 92 **e-mail**: *economicsaz60@gmail.com*